# AZƏRBAYCAN RESPUBLİKASI
# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN KOLLEGİYASI

---

## QƏRAR

№ Q77-001-12

Bakı şəhəri «30» 11 2012-ci il

**«Qeyri-dövlət (özəl) mühafizə fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament»in təsdiq edilməsi barədə»**

**«Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsinin icrasının təmin edilməsi məqsədilə,**

**KOLLEGİYA QƏRARA ALIR:**

**1. «Qeyri-dövlət (özəl) mühafizə fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament» təsdiq edilsin (əlavə olunur).**

**2. Qərar qəbul edildiyi gündən 3 gün müddətində «Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestri»nə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə göndərilsin.**

**3. Qərar respublika daxili işlər orqanlarında elan edilsin.**

**Kollegiyanın sədri**
**general-polkovnik** **Ramil Usubov**

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kollegiyasının 30 noyabr 2012-ci il tarixli Q77-001-12 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

## "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament

### 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:**

Qeyri-dövlət (özəl) mühafizə fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu.

**1.2. Elektron xidmətin məzmunu:**

Bu xidmət (Azərbaycan Respublikasının ərazisində xarici hüquqi şəxslər və ya əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən təsis edilmiş hüquqi şəxslər, o cümlədən birbaşa və ya dolayı yolla xarici kapitalın iştirakı ilə yaradılmış hüquqi şəxslər istisna olmaqla) hüquqi şəxslər tərəfindən qeyri-dövlət (özəl) mühafizə fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılığın (lisenziyanın) verilməsi ilə bağlı müraciətin və sənədlərin qəbulu qaydasını nəzərdə tutur.

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

1.3.1. "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsi.

1.3.2. "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanının 2007-ci il 21 iyun tarixli 596 nömrəli Fərmanının 2-ci hissəsi.

1.3.3. "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-ci hissəsi.

1.3.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və "Elektron xidmət növlərinin Siyahısı"nın 2.4-cü bəndi

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:**

Daxili İşlər Nazirliyi.

**1.5. Elektron xidmətin digər icraçıları:**

Yoxdur.

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:**

Qismən.

**1.7. Elektron xidmətin icra müddəti:**

15 gün ərzində.

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:**

Qeyri-dövlət (özəl) mühafizə fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:**

İnteraktiv

**2.2. Elektron xidmət üzrə ödəniş:**

ödənişli.

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanına Əlavə №2 - "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri"nin 1-ci bəndinə əsasən 3000 manat məbləğində dövlət rüsumu ödənilir.

Dövlət rüsumu ödəniləcək bank hesabının rekvizitləri:

Bakı Şəhəri Vergilər Departamenti,

VÖEN: 1400305751,

Hesablaşma hesabı: 2117131.

Dövlət Xəzinədarlıq Agentliyi,

VÖEN: 1401555071,

müxbir hesabı: 0132030003944,

SWİFT: CTREAZ22.

**Ödəmə üsulu** – bank, poçt, plastik kart və ya internet vasitəsi ilə

**2.3. Elektron xidmətin istifadəçiləri:**

Bu reqlamentin 1.2-ci bəndində göstərilmiş hüquqi şəxslər.

**2.4. Elektron xidmətin təqdim olunma yeri:**

http://mia.gov.az/?/az/content/29767/

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

- http://mia.gov.az/?/az/content/29767/
- e-poçt: info@mia.gov.az
- telefon: +994 12 590-94-74

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**

2.6.1. Xüsusi razılıq (lisenziya) almaq üçün istifadəçi tərəfindən ərizəyə (Əlavə №1) aşağıdakı sənədlərin skan edilmiş surətləri elektron formada əlavə olunur:

2.6.1.1. Hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsi;

2.6.1.2. Ərizəçinin vergi orqanları tərəfindən uçota alınması haqqında müvafiq sənədi.

2.6.2. Qeyri-dövlət (özəl) mühafizə fəaliyyətinə xüsusi razılıq (lisenziya) verildiyi halda dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd.

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1. Elektron xidmət üçün sorğu:**

**3.1.1. sorğunun formalaşdırılması:** istifadəçi tərəfindən ərizə forması elektron xidmətin təqdim edildiyi internet ünvanından yüklənərək doldurulur və bu reqlamentin 2.6-cı bəndində tələb olunan sənədlərin surətləri ilə birlikdə həmin internet ünvanına təqdim edilir.

**3.1.2. sorğunun qəbulu:** sorğu internet səhifəsinə daxil olduğu gün qeydiyyata alınır. Sorğunun qəbul edilməsi və icrası ilə bağlı istifadəçinin elektron poçt ünvanına dərhal bildiriş göndərilir.

**3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.2.1. Sorğunun qəbul edilməsindən imtina halları:**

Bu reqlamentin 2.6.1-ci yarımbəndində nəzərdə tutulmuş ərizə ilə birlikdə tələb olunan sənədlərdən hər hansı biri təqdim edilmədikdə, sorğunun qəbul edilməsindən imtina olunur və imtinanın səbəbləri barədə ərizəçinin elektron poçt ünvanına dərhal bildiriş göndərilir.

Elektron xidmətin göstərilməsindən imtina istifadəçinin qeyri-dövlət (özəl) mühafizə fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılığın (lisenziyanın) verilməsi ilə bağlı Daxili İşlər Nazirliyinin elektron xidmətlər bölməsinə yenidən müraciət etməsinə mane olmur.

**3.2.2. Sorğunun qəbulu:**

İstifadəçi tərəfindən təqdim edilmiş sənədlər bu reqlamentin 2.6-cı bəndində göstərilənlərə uyğun olduqda sorğu qəbul olunur.

**3.3. Sorğunun icrası:**

**3.3.1. ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:**

Sorğu qəbul edildikdən sonra Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair

Təlimat"a uyğun olaraq qeydiyyata alınır və baxılması üçün elektron formada (internet vasitəsi ilə ) Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin İcazə sisteminin bölməsinə ünvanlanır.

Sorğunun icrası üzrə Baş İctimai Təhlükəsizlik İdarəsi İcazə sisteminin bölməsinin rəisi məsuliyyət daşıyır.

**3.3.2. hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti**

Sənədlərə Baş İctimai Təhlükəsizlik İdarəsinin İcazə sisteminin bölməsində baxılır, sənədlərə baxıldığı zaman aradan qaldırılması mümkün olan və imtina üçün əsas olmayan çatışmazlıqlar aşkar edildikdə, onların 5 gün müddətində aradan qaldırılması barədə istifadəçinin elektron poçtuna dərhal bildiriş göndərilir.

İstifadəçi tərəfindən göndərilən sənədlərdə çatışmazlıqlar aşkar edilmədikdə və ya aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra sorğuya baxılması davam edir və imtina üçün əsaslar olmadıqda 15 gün müddətində (sorğu Baş İctimai Təhlükəsizlik İdarəsinin internet səhifəsinə daxil olduğu tarixdən) qeyri-dövlət (özəl) mühafizə fəaliyyətinə xüsusi razılıq verilir.

**3.3.3. inzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat**

Yoxdur.

**3.3.4. inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası**

İstifadəçi tərəfindən göndərilən sənədlərdə çatışmazlıqlar aşkar edilmədikdə və ya aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqda və ya imtina üçün əsaslar olmadıqda qeyri-dövlət (özəl) mühafizə fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi barədə qərar qəbul edilir və xüsusi razılıq (lisenziya) sənədinin alınmasının tarixi, vaxtı və yeri barədə istifadəçinin elektron poçtuna bildiriş göndərilir.

**3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

**3.4.1. Nəzarət forması:** kargüzarlıq;

Daxil olan müraciətlərin avtomatlaşdırılmış rejimdə mütəmadi monitorinqi

**3.4.2. Nəzarət qaydası:**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"la müəyyən edilmiş qaydada.

**3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**

**3.5.1. istifadəçinin şikayət etmək hüququ haqqında məlumat:**

Yaranan mübahisələrlə bağlı istifadəçilər onlara elektron xidmətin göstərilməsinə məsul olan Baş İctimai Təhlükəsizlik İdarəsi İcazə sisteminin bölməsinin rəisinin tabe olduğu yuxarı orqana və (və ya) məhkəməyə şikayət etmək hüququna malikdir.

**3.5.2. şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:**

Şikayət ərizəsi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır.

**3.5.3. Şikayətə baxılma müddəti:** Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsində müəyyən olunmuş müddətdə baxılır.